

# Əliverdizadə Kərim Səlim oğlu
## (110 illik yubileyinə)

2021-ci il aprel ayının 1-də SSRİ Dövlət mükafatı laureatı, Azərbaycan Respublikasının əməkdar elm və texnika xadimi, görkəmli alim, texnika elmləri doktoru, professor Kərim Səlim oğlu Əliverdizadənin anadan olmasının 110 ili tamam olur. O, 1911-ci ildə Ağdam rayonunun Qaradağlı kəndində dünyaya gəlmişdir. K.S. Əliverdizadə 1933-cü ildə "Azneft" İstehsalat Birliyinin nəzdində açılmış üçillik Ali mühəndis-pedaqoji kursunu uğurla bitirdikdən sonra qısa müddət təhsil kombinatının müdiri işləmişdir. 1934-cü ildə "Azneft" İB-nin göndərişi ilə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) daxil olub, 1938-ci ildə oranı fərqlənmə diplomu ilə bitirərək mühəndis-mexanik ixtisasına yiyələnmişdir.

K.S. Əliverdizadə 1938-ci ildə keçmiş Şmidt adına maşınqayırma zavodunda mühəndis-konstruktor kimi əmək fəaliyyətinə başlamışdır. O, 1940-cı ildən Azərbaycan Elmi-Tədqiqat Neft Maşınqayırma İnstitutunda (AzİNmaş) böyük mühəndis-konstruktor, baş mühəndis, elmi işlər üzrə direktor müavini, 1952–1954-cü illərdə isə "Neftqazlayihə" İnstitutunun (indiki "Neftqazelmitədqiqatlayihə" İnstitutunun ) direktoru vəzifəsində çalışmışdır.

O, 1954-cü ildən 1974-cü ilə qədər AzİNmaşda elmi işlər üzrə direktor müavini, 1972-ci ildən Neft və Kimya İnstitutunda "Mexanizm və maşınlar nəzəriyyəsi" kafedrasının professoru, 1974–1990-cı illərdə "Neft-mədən mexanikası, maşın və mexanizmləri" kafedrasının müdiri işləmiş və 1990-cı ildən ömrünün sonuna kimi həmin kafedranın professoru vəzifəsində fəaliyyətini davam etdirmişdir.

K.S. Əliverdizadə "Neftin dərinlik nasos üsulu ilə çıxarılmasının köklü yenidənqurulması" monoqrafiyasına görə 1950-ci ildə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. O, 1954-cü ildə texnika elmləri namizədi, 1963-cü ildə texnika elmləri doktoru alimlik dərəcələrini, 1964-cü ildə professor elmi adını almışdır, 1981-ci ildə ona Azərbaycan Respublikasının Əməkdar elm və texnika xadimi fəxri adı verilmişdir.

Kərim Əliverdizadə ömrünün 60 ilini həm neft və qaz sənayesinin mexanikası, maşın və avadanlıqlarının inkişafı sahəsində elmə, həm də təhsil-tədris sahəsində mühəndis kadrların və alimlərin hazırlanması işinə sərf etmişdir.

K.S. Əliverdizadə 3 monoqrafiyanın, 300-ə qədər elmi məqalə və tədris vəsaitinin, 100-ə yaxın ixtira və səmərəli təklifin müəllifidir.

Onun "Балансирные индивидуальные приводы глубиннонасосной установки" (1951), "Вопросы механики и техники длинноходового режима откачки" (1958), "Приводы штангового глубинного насоса" (1973) kitabları uzun müddət ştanqlı quyu nasosu qurğusunun geniş və səmərəli istifadəsilə əlaqədar mütəxəssislərin masaüstü kitabı sayılır. O, həmçinin "Расчет и конструирование оборудования для эксплуатации нефтяных скважин" (1959) adlı sanballı təhsil vəsaitinin müəlliflərindən biridir. Bu nəzəri və tətbiqi işlər öz əhəmiyyətini indi də itirməmiş, müxtəlif konstruksiyalı ştanqlı nasos qurğusunun intiqalını (balansirli, balansirsiz, fiqurlu balansirli) yaratmağa imkan vermişdir. Neft-maşınqayırma sahəsində mancanaq dəzgahları üzrə K.S. Əliverdizadənin axtarışları və əldə etdiyi nəticələr Azərbaycan elminin nailiyyətlərindən sayılır. Onun rəhbərliyi ilə Novikov ilişməli dişli çarx ötürməli reduktor bazasında yaradılmış mancanaq dəzgahları bir sıra göstəricilərinə görə (metal tutumu, etibarlığı) dünyada istehsal edilən ən yaxşı dəzgah nümunələrindən üstündür. Onun rəhbərliyi ilə 15 elmlər namizədi hazırlanmışdır.

Professor K.S. Əliverdizadənin əziz xatirəsi ixtiraçı, görkəmli elm xadimi, xeyirxah, qayğıkeş, Vətəninin və xalqının təəssübünü çəkən böyük bir şəxsiyyət kimi həmişə qəlblərdə yaşayacaqdır.